# Ceyhun Bayramov "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxış edib




Noyabrın 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda çıxış edib. Nazir çıxışında aşağıdakı fikirləri səsləndirib:

● Beynəlxalq münasibətlər sistemi ciddi transformasiya mərhələsindədir. Sabitliyə, təhlükəsizliyə və rifaha nail olmaq üçün geosiyasi rəqabət mentaliteti əvəzinə qarşılıqlı faydalı əməkdaşlıq gündəliyinə köklənmək vacibdir.

● 44 günlük Vətən müharibəsindən sonra postmünaqişə dövründə regionda bir sıra çağırışların mövcudluğuna baxmayaraq, əməkdaşlıq və dayanıqlı sülhün bərqərar edilməsi üçün yeni imkanlar yaranıb.

● Azərbaycan 30 illik işğalın ağır nəticələrinə baxmayaraq, sülh gündəliyinin irəli aparılması üçün mühüm addımlar atır. Lakin Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, davamlı təxribatlar törətməsi prosesə xələl gətirir.

● Bu gün Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparır. Bu istiqamətdə görülən işlərə maneə törədən ən mühüm amillərdən biri mövcud mina təhlükəsidir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulduğu kimi, Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazilərindən tam olaraq çıxarmayıb və Azərbaycan ərazilərində müxtəlif hərbi fəaliyyətləri, o cümlədən minaların yerləşdirilməsini davam etdirir. Ermənistana təzyiq göstərilməsi və problemin öz həllini tapması istiqamətində beynəlxalq ictimaiyyətin dəstəyinə ciddi ehtiyac var.

● Hazırda bölgədə və dünyada baş verən hadisələr mövcud çağırışlarla mübarizədə əməkdaşlığın artırılmasının zəruriliyini sübuta yetirir. Beynəlxalq "Şərq-Qərb" Orta Dəhlizi boyunca əsas tranzit ölkələrdən biri kimi, tədarük zəncirinin pozulması riski yaratmağa davam edən hadisələr fonunda tranzit əməliyyatlarının təhlükəsizliyini və etibarlılığını təmin etmək Azərbaycanın əsas prioritetlərindəndir.

● Bağlantıların gücləndirilməsinin əsaslarından biri kimi enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. 2022-ci il iyulun 18-də Azərbaycan və Avropa İttifaqı arasında imzalanan anlaşma memorandumu özündə enerji təhlükəsizliyinin bir sıra komponentlərini, o cümlədən enerji infrastrukturunun modernləşdirilməsini, alternativ enerji mənbələrinin inkişafında əməkdaşlığın genişləndirilməsini ehtiva edir. Elektrik enerjisi istehsalı sahəsində səylərin gücləndirilməsi də prioritet istiqamətlər sırasındadır.

● Regional kommunikasiyanın gücləndirilməsi baxımından müxtəlif üçtərəfli formatlar bölgədəki əlaqələrin genişləndirilməsinə və mövcud ziddiyyətlərin aradan qaldırılmasına kömək göstərir, qarşılıqlı maraqlara əsaslanan strateji əlaqələrin daha da inkişaf etdirilməsi üçün mühüm mərhələ rolunu oynayır.

● Azərbaycan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müvafiq bəndinə uyğun olaraq regionda kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atır. Bu xüsusda Zəngəzur dəhlizinin açılması üzrə öhdəliklərin yerinə yetirilməsi zəruridir. Bu, bölgənin tam potensialından istifadəyə, həm də sülh quruculuğu prosesinə mühüm töhfə verə bilər.

Nazir Ceyhun Bayramov daha sonra konfrans iştirakçılarını maraqlandıran sualları cavablandırıb.

Noyabrın 26-dək Bakı və Ağdamda davam edəcək tədbirdə Türkiyə, ABŞ, Belçika, Birləşmiş Krallıq, Bolqarıstan, Kanada, Misir, Fransa, Gürcüstan, İsrail, İtaliya, İsveçrə, Özbəkistan, Pakistan, Polşa, Rumıniya, Rusiya beyin mərkəzlərinin nümayəndələri iştirak edəcəklər.